Ədalət 2019.- 5 noyabr.- S.7.

**Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

**№ 163 (2011) 5 noyabr 2019-cu il**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

# Azərbaycanda yaşayan azsaylı xalqların folkloru - Rutullar

(əvvəli ötən sayımızda)

**Bir faktı da qeyd edək ki, rutulların istifadə etdiyi alətlərdən biridə "mey"dir. Bu alət rutulların istifadə etdiyi alətlər içərisində əsas yerlərdən birini tutur.Mey aləti qamışdan hazırlanır. Onun ucuna buynuz taxılır. Ona görə ki,alətdən çıxan səsi gücləndirir.O birisi tərəfinə ( ağız tərəfi) isə süpsi taxılır.**

Rutulların rəqs sənətinə başlədikləri rəğbəti heç nə ilə müqayisə etmək olmaz.Rəqslərin bəziləri üç-üç ( "Məhərrəmkənd" , "Akuşinka" , "Koroğlu qaytarması") və ya iki-iki ( " Çuırniçuırni" və " Arzurık`a") birləşməklə kiçik silsilələr əmələ gətirir. Göründüyü kimi , rutul rəqslərində qonşu xalqların folklorundan iqtibaslar da vardır. Müştərək cəhətləri və melodik tipləri xalq mahnı yaradıcılığında da görmək olar. "Lilay", "Maralxanım" , "Ceyranım" və.s.

Musiqi nümunələrinin hamısı olmasa da , əksəriyyəti doğma dildə adlandırılır. Yuxarıda adları çəkilənlərə başqalarını da əlavə etmək olar: "Can abay" , "Paruk`ay", "Dəydiriş" (rəqsin və instrumental melodiyanın adıdır), "Akuşinka" avarlarda da rast gələnən tək kişi rəqsinin adı ilə bağlıdır.

Bir sıra janrların adını bildirən terminlər də məlumdur. "Muk`" - rəqs, "muk` havn" -rəqs etmək , "ç`aılbı"- mahnı deməkdir. "Avazaxhan" isə sərbəst ( kimi) ritmli improvizə üslubu ilə muğamları xatırladır və Azərbaycan muğam şöbələrindən istifadəni şərtləndirir. Qeyd etdiyimiz kimi rutulların folklorunun əsas hissəsini rutul mahnıları təşkil edir.

Belə mahnılardan bir neçəsini misal göstərmək olar:

**1. Dağıstanad bıç`kaldı ,ay bıçadl riş**
**Yeyləxanad xhədkaldı, ay bıçadı riş**
**Dağıstanad bıç`kaldı, ay bıçadı riş**
**Yeyləxanad xhədkaldı,ay bıçadı riş**

**Suvumudu ceyran kaldı**
**Dərdimid dərman kaldı**
**Masarıd almaz kaldı**
**Ay xaşdi rutulaşdı riş.**

**Suvumudu ceyran kaldı**
**Dərdimid dərman kaldı**
**Masarıd almaz kaldı**
**Ay xaşdi bıçamıdı riş.**

**Ğudu cubra irxhur yi ay bıçadı riş**
**Ğudu dərdə irxhur yi can bıçadı riş**
**Ğudu cubra irxhur yi ay bıçadı riş**
**Ğudu dərdə irxhur yi can bıçadı riş**

**Suvumudu ceyran kaldı**
**Dərdimid dərman kaldı**
**Masarıd almaz kaldı**
**Ay xaşdi rutulaşdı riş.**

**Suvumudu ceyran kaldı**
**Dərdimid dərman kaldı**
**Masarıd almaz kaldı**
**Ay xaşdi bıçamıdı riş.**

**2.Yik`ə abı huxhus yıqar yəs ğada**
**Ğu ğarqudə yi lal ruk`ur Şahzada**
**Rıxdi ziya luzur alkar uyuxkal**
**Çulax ruk`ur,tupal ruk`ur Şahzada**
**Sa ğu rişixh , say i yişixh can qada**
**Did-nin yik`ir ğu yəs rişixh Şahzada**

**Hər bulaxa ruırk`uıdə ğu kaz xıla**
**Ğarazar yi favkıdıkal faz xıla**
**Yəsgi ağus yıqar laşur saz xhıls**
**Suk`ur yəşəs,keyghas yıqar Şahzada**
**Balabankal eyghas yıqar Şahzada**
**Sa ğu rişixh , say i yişixh can qada**
**Did-nin yik`ir ğu yəs rişixh Şahzada**

**Yuşa k`uşk`ud nak`bı ğaqar larxanə**
**Vıxhdı xalı seyvana yi salxanə**
**Hirkanə yi şinara yişir larxanə**
**Ğudu şuklə siy vuruk`ur Şahzada**
**Xələ ubul ,xiy vuruk`ur Şahzada**
**Sa ğu rişixh , say i yişixh can qada**
**Did-nin yik`ir ğu yəs rişixh Şahzada**

Rutul atalar sözləri və deyimləridə Rutul folklorunun əsasını təşkil edir. Rutul atalar sözlərindən aşağıdakıları misal göstərə bilərik.

**- Sa yeylaxa lixhımıd yə ç`ar yə xasiyət kiykasi.**

*(Eyni yaylaqda otlayanların ya tükləri, ya da xasiyyətləri oxşar olar)*

**- Ublus suda ki kıvınə maa ç`alag-xdiil kavaqhas diş.**

*(Canavarı nə qədər yedizdirsən də,yenə də meşəyə girməz)*

**- Mık q`ıldıqır t`ulq`at`i.**

*(Buz nazik yerindən çatlar)*

**- Tanbaldı yiimaıləs palan ki sa xəl ki.**

*(Tənbəl eşşəyə palan da ağır yükdür)*

**- Aldara yats lipxhudə aa yiimal vəşədvi.**

*(Yuxarıda öküzün ayağı sürüşəndə aşağıda eşşək ağlayar)*

**- Xhəd qhaıaıtxiir, kubkuxdax xıl qhama`.**

*(Su axıb gedəndən sonra köpüyünə əl atma)*

**- Ğuas çıqay mannas ki ma`.**

*(Özün üçün istəmədiklərini özgələrinə də arzulama)*

**- Suvq`udu aslanala luvzudu çaq`al diri vii.**

*(Yatmış aslandansa ,ayıq çaqqal qorxuludur)*

**- Xaina q`ış linsəddiş.**

*(Xain adam piylənməz) (varlanmaz)*

**- Ğu kapıraxhan yıixiidi ğuc xhıvaxhan yiix.**

*(Səni xəncərlə vuranı sən çörəklə vur)*

**- Yik`is ğaçagud ulus ğavaqad diş.**

*(Qəlbin görmədiyini göz görə bilməz)*

**- Kaçılmıxda vıxhıdı ubramıkia ki vişir.**

*(Buynuzdan ötrü getdi,qulağınıda itirdi)*

**- Livxhid; viq`iddiş.**

*(Otlayan ölməz)( xəstəlikdən sonra)*

**- Ubluk` təxh kipt`ə ha`vırvi.**

*(Canavara qoyun tapşırılıb)*

**- Haldı k`at`ırda kış ha`vıdı idə.**

*(Kimin toyuğuna kış deyib)*

Rutulların folkloruna, adət-ənənəsinə aid olan maraqlı adətlərdən biridə adətən qışda keçirilən "qudiy-qudiy" oyunudur.

Bildiyimiz kimi rutulların yaşadığı kəndlərdən biri olan və qış fəslinin sərt və uzun keçdiyi Şin kəndində qar çox yağır.

Qar yağan vaxtı bir qrup cavan və orta yaşlı sakinlər( kişilər) 10-15 nəfərlik qrupda birləşərək " çaqqal" bəzəyirlər. Çaqqalı həmin 10-15 nəfərlik qrupun içərisində olan oğlanlardan birindən dərilərlə bəzəməklə düzəldirlər.Əlbəttə ki, bu mifik bir obrazdır.Yəni insanların diqqətini cəlb etmək üçün hazırlayırlar.Bununla yanaşı bu qrupla yanaşı zurna-nağara çalanlarda mövcud olur. Bu zaman həmin qrup qapı-qapı gəzərək çalır-oynayır, hansı evə getsələr həmin evin sahibi çaqqala müəyyən ərzaq malları : kartof, lobiyə, düyü, qoz, fındıq və.s kimi meyvə - tərəvəz və ərzaq mallarından pay verir.

Çaqqal hansı evə getsə həmin evin həyətində oynayır və daha sonra çaqqal ölür.Çaqqal özünü qarın qalın olan hissəsinə atır ki, yıxılanda əzilməsin.Evin sahibi pay verəndən sonra isə durub gedərdi.Çaqqal yoldan keçəndə uşaqları qorxudur, kimi əlinə keçirə bilsə yerə yıxdırıb qar yedizdirərdi.

Ona görə də , xüsusən də uşaqlar üçün bu adət çox maraqlı keçirdi.Çaqqalın qabağına böyük adamlar ( kişilər) çıxsa onunla güləşərdi.

Beləliklə çaqqal üç gün kəndi dolaşardı.

Kəndi dolaşıb qutarandan sonra həmin qrupun üzvləri toplanmış ərzaq mallarından bir kampaniya təşkil edib yeyib- içirdilər. Bu adət heç bir kəndə məxsus deyil, ancaq Şin kəndində məxsusdur.

**Son olaraq deyə bilərik ki, respublikamızda yaşayan müxtəlif etnik qrupların folklorunun toplanılması və təbliği onlar arasında səmimi münasibətlərin möhkəmlənməsində, xalqlar arası mənəvi bağlılığın yaranmasında böyük rol oynayır. Azərbaycanda yaşayan azsaylı xalqların folklorunun toplanması, araşdırılması və konservasiyası dövlət siyasətinin əsas prioritet məsələlərindən biridir.**





***Tural ADIŞİRİN***
***AMEA ŞREM-in "Folklor və el sənətləri" şöbəsinin kiçik elmi işçisi***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR